# Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər

Bu gün Azərbaycanın bütün bölgələrində böyük abadlıq-quruculuq işləri gedir. İnsanlarımızın sosial-məişət problemlərinin həlli də məhz bu dəyərli işlərin nəticəsində sürətlənir. İndi ölkə vətəndaşı Avropa həyat tərzini yaşamaq iddiasındadır. Davamlı təbii qazı, enerjisi olan, müasir standartlara uyğun magistral yolları, geniş infrastrukturu qurulan rayonlarda insanların yeni iş yerləri ilə təmin olunması da sosial rifahı yüksəldən önəmli amildir. Xüsusən son bir neçə ildə müasir infrastrukturların yaradılması, paytaxtın və eləcə də regionların sosial iqtisadi inkişafının sürətlənməsi üçün Prezident İlham Əliyev tərəfindən 20-dən çox Dövlət Proqramları imzalanıb. Onların bir çoxu artıq uğurla icra olunub və yüksək nəticələr mövcuddur.



Məhz həmin Dövlət Proqramlarının icra olunması nəticəsində paytaxtın Suraxanı rayonunda da böyük abadlıq və quruculuq işləri həyata keçirilib. Rayonun iqtisadi uğurları davamlıdır və 2015-ci ilin 10 ayının yekunları yüksək inkişaf göstəriciləri və abadlıq işləri ilə zəngindir. Xüsusən insanların rahatlığı və abad bir məkanda yaşamaları üçün bu il rayonda geniş abadlıq-quruculuq işləri həyata keçirilib. Belə ki, Əmircan qəsəbəsindəki Tofiq Bayram parkı əsaslı təmir olunaraq yenidən qurulmuş, Bülbülə qəsəbəsindəki 24 saylı poliklinikanın qarşısında yeni park salınmış, rayonun Səttar Bəhlulzadə, İlqar Məmmədov və Xanlar Ələkbərov küçələrində ümumilikdə 12 min kvadratmetrdən çox yaşıllıq salınmış, Səttar Bəhlulzadə və Oqtay Əliyev və digər onlarla küçə asfaltlaşdırılaraq yeni işıq dirəkləri və çilçıraqlar quraşdırılmışdır. 2015-ci ilin 9 ayı ərzində Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 198,1 milyon manat, tikinti-quraşdırma işləri 34,2 milyon manat, nəqliyyat xidmətləri 3,8 milyon manat təşkil etmişdir. Eyni zamanda, bu müddət ərzində daimi olmaqla 2355 yeni iş yeri açılmışdır. Həmçinin Qaraçuxur qəsəbəsində 146 saylı orta məktəb üçün 25 əlavə sinif otağından ibarət tədris korpusu, idman və akt zalları tikilərək istifadəyə verilmiş, Əmircan qəsəbəsində 5 saylı və Yeni Günəşli yaşayış sahəsində 262 saylı uşaq bağçaları əsaslı təmir olunmuş, Qaraçuxur və Bülbülə qəsəbələrində idman zallarının, Yeni Günəşli "V" yaşayış sahəsində idman meydançasının, Əmircan qəsəbəsində rayon icra hakimiyyəti tərəfindən 100 yerlik uşaq bağçasının, Yeni Günəşli "D" yaşayış sahəsində şahmat məktəbinin və yanğından mühafizə bölməsinin binasının tikintisi davam etdirilmişdir. Qaraçuxur qəsəbəsində Cəlal Qurbanov, İlqar Musayev, Zaur Şərifov, Abbas Fətullayev, Nizami İsmayılov, Fərman Kərimzadə və Abbasqulu bəy Şadlinski küçələrində və Yeni Günəşli yaşayış sahəsində rayonun idarə və müəssisələrinin köməkliyi ilə abadlıq-quruculuq işləri həyata keçirilmişdir.

2015-ci ildə də Suraxanı rayonunda ekoloji məsələlərin həllinə diqqət artırılmışdır. Dövlət başçısının müvafiq sərəncamlarına və qəbul edilmiş Dövlət Proqramına əsasən, Bakı şəhərində mövcud olan göllərin, o cümlədən Bülbülə və Zığ göllərinin təmizlənməsinə, ətraflarının abadlaşdırılmasına başlanılmışdır. Rayonun əməliyyat şirkətləri tərəfindən lay suları və neftlə çirklənmiş 8,17 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunmuş, ümumi sahəsi 5 hektar olan müxtəlif ölçülü 24 ədəd gölməçə qurudulmuş, 30 ədəd quyunun işçi meydançası və quyuətrafı sahələri neft tullantılarından təmizlənmiş, neft kollektorları təmir olunmuşdur.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçən ilin noyabr ayında başlayan birinci "Ümumrespublika yaşıllaşdırma marafonu" çərçivəsində cari ildə də ağacəkmə kampaniyası davam etdirilmiş, marafon çərçivəsində rayonun idarə və müəssisələrinin iştirakı ilə 11 ümumrayon iməciliyi keçirilərək 7,4 mindən artıq ağac əkilmişdir.

Rayonda mövcud olan problemlərdən ən ciddisi Zığ qəsəbəsində qəzalı vəziyyətə düşmüş yaşayış evləridir. Bu istiqamətdə sakinlərə köməklik göstərilmişdir. Belə ki, onların təhlükəsizliyinin təmin edilməsi məqsədilə 22 ailə RİH-in daxili imkanları hesabına kirayə evlərə köçürülmüşdür. 2015-ci ilin 9 ayı ərzində rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən 759 nəfər vətəndaş qəbul edilmişdir. Eyni zamanda, 1715 nəfər sakinin iştirakı ilə rayon icra hakimiyyəti başçısının keçirdiyi 27 səyyar görüş-qəbulda qaldırılan məsələlərin bir çoxu həllini tapmışdır.

Bakının ucqarında yerləşən bu rayon tarixi qədimliyinə, mədəni abidələrinə görə də zəngindir. Azərbaycanın maddi mədəniyyət abidələri sırasında Bakının Suraxanı rayonunda yerləşən, XVII-XVIII əsrlərə aid atəşpərəst məbədinin qalıqları üzərində inşa olunmuş və UNESCO-nun "Dünya irsinin ilkin siyahısı"na daxil edilmiş "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunun özünəməxsus yeri var. "Atəşgah" XVII-XVIII əsrlərdə təbii qazların çıxdığı "əbədi", sönməz alovların yerində inşa edilmiş od məbədidir. Bu alovlar hələ çox qədim zamanlardan məlum idi, insanlar onlara ehtiramla yanaşırdılar. İndiki ibadətgah da vaxtilə dini buralarda hakim olmuş atəşpərəstlərin- zərdüştlərin qədim məbədlərinin yerində tikilmişdir. Bu məbədin ilk tikilişi təqribən II-III əsrlərə aiddir. Bu atəşgahlarda müxtəlif zamanlarda Düma, Mendeleyev, Vereşşagin, professor Berezin, akademik Dorn kimi məşhur alim və səyyahlar qalmışlar.

Bu məbədlər təqribən II-III əsrlərdə inşa edilmişdir. XVII əsrdə məbədin ətrafında bir-birinin yanında ibadətxana, 26 hücrə və karvansara inşa edilmişdir. Vaxtilə hücrələrdə müxtəlif dini ayinlərin icra olunması və oda sitayiş edən kahinlərin fəaliyyəti üçün lazımi şərait də olmuşdur. Məbədə gələn zəvvarlar karvansarada istirahət imkanı da əldə etmişlər. XVIII əsrin əvvəlində məbəd artıq bizim dövrə gəlib çıxdığı şəkli almışdır.

Son bir neçə ildə aparılan abadlıq və tarixi restavrasiya işləri nəticəsində "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunun sahəsi 4,2 min kvadratmetrdən 15 min kvadratmetrə qədər genişləndirilmişdir. Sahəsi iki min kvadratmetrdən artıq olan əsas bina xüsusi memarlıq üslubunda inşa olunmuşdur. Məbədlə həmahəng inşa olunan əsas binada idarə, dəmirçi kürəsi, dəmirçi emalatxanası, mis və çini qablar, taxta üzərində oyma, xalça, kəlağayı və həsir toxuma emalatxanaları, suvenirlər, rəsm qalereyası mövcuddur. Xüsusi memarlıq üslubunda yaradılan muzeydə Bakı şəhəri və Abşeron rayonu ərazisində vaxtilə mövcud olan qədim yaşayış binalarını və abidələri əks etdirən guşələr yaradılmışdır. Burada əcdadlarımızın istifadə etdikləri məişət əşyaları və incəsənət nümunələri nümayiş olunur. Muğam evində isə buraya gələn ziyarətçilərin istirahətinin yüksək səviyyədə təşkili məqsədilə ayrıca guşə yaradılmışdır. Burada Azərbaycan muğamının təbliği məqsədilə müxtəlif konsertlərin təşkili də nəzərdə tutulmuşdur.

Azərbaycanın neft və qaz sənayesinin inkişafı tarixi bilavasitə Suraxanı neft yatağının adı ilə bağlıdır. Dünyada quruda ilk dəfə Suraxanıda neft yatağının sənaye üsulu ilə işlənməsinə (1904-cü il) başlanılmışdır. Suraxanı neft rayonunun inkişafı çox qədim zamanlara təsadüf edir. VII əsrin məşhur ərəb səyyahı və coğrafiyaçısı Əl Məsudi qeyd edirdi ki, Bakıda iki əsas neft mənbəyi var, onlardan birindən ağ neft, digərlərindən isə qara və mavi neft çıxarılır. Abşeron yarımadasında yerdən çıxan qazın yanması haqqında ilk məlumatı Bizans müəllifi Panili Prisk hələ V əsrdə vermişdir. 1806-cı ildən başlayaraq Abşeronun neftli quyuları gəlir mənbəyinə çevrilir, dövlət onları icarədarlara satmağa başlayır.

Rayonda gənclərin idmana olan həvəsi də yüksəkdir. Birinci Avropa Oyunları Suraxanı idmançıları üçün çox uğurlu olmuş, karate idman növü üzrə Ayxan Mamayev qızıl medal, sambo üzrə Vasif Səfərbəyov gümüş medal, qılıncoynatma idman növü üzrə Sevil və Sevinc Bunyatova bacıları 1 gümüş və 1 bürünc medal qazanmışlar.

Mənim şəxsi qənaətimə görə, rayonun abadlaşması, sakinlərin sosial-məişət rahatlığının təmin olunması rayon rəhbərliyinin işgüzarlığından, onun təşkilatçılığından və dövlətə, onun rəhbərinə sədaqətindən qaynaqlanır. Eyni zamanda, məmurun vətən qarşısında məsuliyyət və vicdan borcu da daim irəlidə olanda bu işlərin rəvanlığı daimi olur. Bu mənada mən Suraxanı rayonunda gedən böyük abadlıq və quruculuq işlərinin genişliyini və səmərəliliyini, eyni zamanda, rayon rəhbərliyinin şəxsi işgüzarlığında görürəm. Çünki Prezident İlham Əliyevin ölkə vətəndaşlarına diqqət və qayğısının rayonlarda yüksək səviyyədə təzahür tapmasında məhz yerli məmurların iş bacarığı mühüm rol oynayır.

Rayonda davamlı olaraq şəhid ailələrinin, milli qəhrəmanların, aztəminatlı ailələrin, əlillərin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraiti yaxşılaşdırılır. Həmçinin milli mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılması, inkişaf və təbliğ etdirilməsi, tarixi hadisələrin, əlamətdar günlərin qeyd olunması, ictimai təşkilatlar, siyasi partiyalar və dini qurumlar, habelə təhsil, səhiyyə, mədəniyyət müəssisələri ilə qarşılıqlı münasibətlərin qurulması, onların fəaliyyətinin koordinasiyası məsələlərinə mühüm önəm verilir.

Bütün bu inkişaf dövrünə rəğmən deyə bilərik ki, Suraxanı rayonu 2016-cı ildə də iqtisadi və sosial həyatda daha böyük uğurlara imza atacaq. Ona görə ki, rayondakı böyük işgüzarlıq, səmimi təşəbbüskarlıq mühiti və ən başlıcası isə ölkəmizin gələcəyinə, Prezident İlham Əliyevin siyasi kursuna böyük inam vardır. Sonda demək lazımdır ki, suraxanılılar həmişə Vətənə və dövlətə sədaqətlə xidmətin nümunəsini ortaya qoyublar. Ona görə ki, bu insanlar qəlbən təmizliyi, saflığı, abadlığı sevəndilər. Necə deyərlər, təmizlik və abadlıq imandan gəlir. Bu dəyərli fikri atalarımız ona görə söyləyiblər ki, abadlıq və quruculuqla məşğul olanlar həmişə imanlı, vicdanlı, xalqsevər olublar. Burada yenə də bir rəvayət yada düşür: Bağban saraydakı bağçanı iki böyük su kuzəsi ilə sulayırmış. Onun sağ əlinə götürdüyü kuzə bir azca çatdaq imiş və hər dəfə su daşıyarkən ondan damcı ilə tökülən su yolun sağını gülüstana çevirib. Əslində, bu rəvayətin məntiqi odur ki, nəfsi pak, əqidəsi saf olanlar üçün qurub-yaratmaqdan ötrü vaxtın, məkanın və imkanın fərqi yoxdur.

**Elçin Zaman,**
***"İki sahil"***

**Yazı Suraxanı Rayon İcra Hakimiyyəti ilə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**